Ədalət 2019.- 12 oktyabr.- S.11.

# "Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri"

**Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada Milli Məclisin deputatları, siyasi partiyaların nümayəndələri, QHT təmsilçiləri və ekspertlər iştirak ediblər.**



Tədbirdə çıxış edən **Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov** bildirib ki, Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi bəyanat gündəmin ciddi şəkildə dəyişməsinə gətirib çıxarıb. Bu bəyanat təkcə Azərbaycan cəmiyyətində deyil, daha geniş müstəvidə müzakirə olunur. Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı, sadəcə olaraq, danışıqlar prosesində Azərbaycanın dəfələrlə səsləndirilmiş mövqeyinin bir daha təkrarlanması demək deyil. Bu bəyanatın daha böyük əhəmiyyəti olduğunu vurğulamaq lazımdır. Bu çıxış bir çox ünvanlara hədəflənmiş çıxış idi. Onun hədəflərindən biri Ermənistandır. Bununla Ermənistan cəmiyyətinə mesaj verildi ki, işğalçı ölkə öz xülyasından əl çəkməlidir. Mesajın ünvanlandığı hədəflərdən biri beynəlxalq təşkilatlardır. Çünki onlar Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar vasitəçilik missiyasını üzərlərinə götürüblər. Prezident İlham Əliyevin mesajının ünvanı həm də Azərbaycan cəmiyyəti idi. Bu gün ölkəmizin hər yerində "Qarabağ Azərbaycandır" sədasını eşidirik. Bu, torpaqları işğaldan azad etmək əzmini daha da qətiləşdirir. Yeni Azərbaycan Partiyası olaraq, bu ideyanın gerçəkləşdirilməsi üçün addımlar atırıq. Yollarda Bakı Nəqliyyat Agentliyi ilə birlikdə bu şüarları əks etdirən elektron monitorlar quraşdırılıb, plakatlar yerləşdirilib, kampaniya üçün köynəklər sifariş verilib. "Qarabağ Azərbaycandır!" mesajı cəmiyyətin milli birliyini və vətəndaş həmrəyliyini təmin edən ən mühüm ideyalardan biridir. Bu baxımdan, "Qarabağ Azərbaycandır!" ideyası böyük bir hərəkata çevriləcək. Bu ideyanın ətrafında cəmiyyətimizin üzvlərinin fəal şəkildə birləşməsi bunu deməyə əsas verir.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** qeyd edib ki, ölkə başçısı "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı ilə bütün dünyanı düşündürən çıxış edib. Onun sözlərinə görə, Azərbaycan cəmiyyəti "Qarabağ Azərbaycandır" hərəkatı ətrafında birləşməlidir.

**Millət vəkilləri Fəzail İbrahimli, Hikmət Babaoğlu və Bəxtiyar Əliyev** isə vurğulayıblar ki, Prezident İlham Əliyevin məlum bəyanatı ilə erməni yalanları ifşa olunub.

Dəyirmi masa müzakirələrdən sonra yekunlaşıb.

**Nicat Novruzoğlu**